# “Təbriz namusu” romanında tarixi şəxsiyyət konsepsiyası
## *(Elxani hökmdarı Sultan Əbu Səid Bahadur xan və Əmir Çoban obrazlarının təhlili əsasında)*

**Lamiyə Nəsirova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: nasiroff11@gmail.com

**Annotasiya.** Araşdırmaya cəlb olunan “Təbriz namusu” romanı Elxanilər dövlətinin IX hökmdarı Əbu Səid Bahadur xan və tarixi şəxsiyyət Əmir Çobanın bədii obrazlarının dolğun və hərtərəfli öyrənilməsi baxımından əhəmiyyətlidir. Tədqiqat işinin məqsədi romanda tarixi şəxsiyyətlərin bədii obrazları və xarakterlərinin mühüm tərəflərinin təhlilidir.
Romanda Elxanilərin hakimiyyəti dövrünün təsviri “Naxçıvanda qəsd” hissəsinin nəqli ilə başlayır. Tarixi şəxsiyyət Əbu Səid Bahadur xanın bədii obrazı “Təbriz namusu” romanında hakimiyyətə gəldiyi dönəmdən etibarən ölümünə qədər olan zaman kəsimində, Elxanilər dövlətinin siyasi-ictimai mənzərəsi fonunda təsvir edilmişdir. Əbu Səid xan “bahadur” ləqəbini Sultaniyyədə Əmir Qurmuşla aparılan döyüşdə göstərdiyi şücaətə görə qazanmışdır. Əsərdə monqol xanı Əbu Səid Bahadur xanın tarixi obrazı yenidən canlandırılmış, onun siyasi fəaliyyəti və insani keyfiyyətləri qələmə alınmışdır. Romanda hökmdar bir çox hadisələrin mərkəz fiqurlarından biri kimi təsvir olunmuşdur. Hökmdarın siyasi fəaliyyətə başladığı dönəmlərin Elxanilər sülaləsində ziddiyyətli, qarışıq və feodal ara çəkişmələrinin hökm sürdüyü bir dövrə təsadüf etdiyi görünməkdədir. Romanda təsvir olunan müxtəlif hadisələr xəyanətkar və satqın qüvvələr qarşısında Əbu Səid Bahadur xanın acizliyini və peşmanlığını ortaya qoymaqdadır. Monqol hökmdarı zaman-zaman siyasi fəaliyyətindəki təcrübəsizliyi və zəifliyinin fərqində olan, hakimiyyətinin nə qədər böyük təhlükə altında olduğunu dərk edən bir obraz olaraq təsvir edilmişdir.
Romanda Əmir Çoban obrazının təhlili daxili-mənəvi aləminin cizgiləri ilə yanaşı, onun insani keyfiyyətlərini, xarakterinin müsbət və mənfi tərəflərini ortaya çıxarır. Elxanilər dövlətində hökm sürən daxili çəkişmələr və siyasi təzyiqlər dövlətin bütün idarəçilik işlərini əlində cəmləşdirən Əmir əl-üməra Çobanın nüfuzuna zaman-zaman xələl gətirmişdir. Əsərdə feodal ara mübarizələri və təzadlı hadisələr fonunda Əmir Çoban obrazının fərdi cizgilərinin ümumiləşmiş şəkildə təsviri izlənilməkdədir.
**Açar sözlər:** tarixi roman, şəxsiyyət konsepsiyası, Elxanilər, Əmir Çoban, Əbu Səid Bahadur xan

**Məqalə tarixçəsi:** göndərilib – 01.10.2022; qəbul edilib – 09.10.2022

# The concept of historical personality in “Tabriz’s Pride” novel
## *(Based on the analysis of the images of the ruler of the Elkhanids Sultan Abu Said Bahadur Khan and Amir Choban)*

**Lamiya Nasirova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: nasiroff11@gmail.com

**Abstract.** The novel "Tabriz’s Pride" is important in terms of a full and comprehensive study the artistic image of the ninth ruler of the Ilkhanid state Abu Said Bahadur Khan and the historical figure Amir Choban. The research aims to analyze the important aspects of the artistic image and character of historical figures in the novel.

The description of the Elkhanid period in the novel begins with the narration of the part "Murder in Nakhchivan". "Tabriz's Pride" novel describes the artistic image of the historical figure Abu Said Bahadur Khan from the time he came to power until his death, against the background of the political and social landscape of the Ilkhanid state. Abu Said Khan was granted the honorific title of "Bahadur" for his bravery in the battle with Amir Qurumshi in Soltaniyah. The novel revives the historical image of the Mongol khan Abu Said Bahadur Khan, describes his political activity and human qualities. The period when the ruler began his political activity coincided with the period of contradictory, mixed and feudal civil strife in the Elkhanid dynasty. The novel reveals the weakness and remorse of Abu Said Bahadur Khan in the face of treacherous events. The novel describes the Mongol ruler as a person who sometimes is aware of his inexperience and weakness in political activities and the great danger to his power.

The analysis of the image of Amir Choban reveals the ruler's inner qualities, the positive and negative aspects of his character. The internal strife and political pressures in the Elkhanid state from time to time damaged the reputation of Amir al-Umar Choban, who controlled all the affairs of the state. Against the background of feudal civil strife and conflicting events, the work provides a generalized description of individual features of the image of Amir Choban.

**Keywords:** historical novel, the concept of personality, Ilkhanids, Amir Choban, Abu Said Bahadur Khan

**Article history:** received – 01.10.2022; accepted – 09.10.2022

## Giriş / *Introduction*

Tarixi hadisələrin və şəxsiyyətlərin bədii ədəbiyyatda qələmə alınması xalqın keçmişini, mürəkkəb və ziddiyyətli dönəmlərini müasir dövrə gətirməklə yenidən canlandırılmasına xidmət edir. Tarixi əsərlər tarixlə bilavasitə bağlı olan və dolğun şəkildə mənalandırılan hadisələrlə bərabər, zəngin insan xarakterlərinin təsvirini, zamanın ictimai-siyasi təzadlarını əks etdirməkdədir. Tarixlə bədiiliyin vəhdətindən meydana gələn tarixi romanlar həm də keçmiş dövrün və şəxsiyyətlərin fəaliyyətinin işıqlandırılması üçün vasitələrdən biridir. Bu mənada tarixi mənbə və bədii təxəyyülün uzlaşdırılması ədəbi şəxsiyyətlərin təsvirində əsas amillərdəndir. Romanlar tarixin bədii düşüncədə əksinin ən yaxşı nümunələrindən biri kimi həm də keçmiş və müasirliyin vəhdətinin ifadəsidir.

Bədii təhlil yolu ilə tarixi hadisə və şəxsiyyətlərin canlandırılması, gerçəkliyin qorunub saxlanılması Azərbaycan tarixi romanlarını zənginləşdirmişdir. XX əsrin ikinci yarısı Azərbaycan romanı tarixində yeni bir mərhələ olaraq dəyərləndirilir. Bu mərhələdə Azərbaycan romanı janrın milli və dünya ədəbiyyatındakı ən yaxşı ənənələrindən müvəffəqiyyətlə bəhrələnməklə bərabər, ideya-tematik və bədii sənətkarlıq baxımından xeyli inkişaf etmişdir [11, s.108].

Tarixi romanlarda irəli sürülən şəxsiyyət konsepsiyası ədəbi qəhrəmanla birbaşa bağlıdır və onun mühüm cəhətlərini özündə cəmləşdirir. Hər dövrün sosial-mədəni vəziyyəti ədəbiyyata təsir göstərməklə bərabər, yeni növ qəhrəmanların və yeni bədii vasitələrin meydana çıxmasına səbəb olmuşdur. *"...müasir tarixi roman müəlliflərimizi şəxsiyyətin daha çox iradi keyfiyyətləri, onun öz milli-tarixi məzmununa, ideallarına sadiqliyi, mənəvi-əxlaqi bütünlüyü cəlb edir"* [4, s.209].

İctimai-siyasi fəaliyyəti ilə roman qəhrəmanına çevrilmiş tarixi simalar öz həyat və mübarizə yolu ilə əsərdə ön plana çıxır, ədəbi qəhrəmanın ətrafında cərəyan edən hadisələr yazıçı tərəfindən dolğun şəkildə mənalandırılır. Tarixi romanlarda irəli sürülən şəxsiyyət konsepsiyası əsərin poetikası və bütövlükdə bədii istiqamətinin müəyyənedici xüsusiyyəti hesab olunur. Tarixi şəxsiyyətin bədii obrazını, xüsusilə tarixi təhrif etmədən bir qəhrəman kimi yaratmaq sənətkarın həll etdiyi ən çətin işlərdən biridir. Bu

baxımdan romanda tarixi qəhrəman konsepsiyasının yaradılması ehtiyacı həm də obyektiv tarixi əsaslarla bağlı olmuşdur.

Bədii əsərlərdə şəxsiyyət konsepsiyası və tarixi şəxsiyyətə münasibət iki istiqamətdə təzahür edir: şəxsiyyətin mənəvi-psixoloji aləminin bədii əksi və ictimai-sosial mövqeyi. *"Şəxsiyyət, hər şeydən əvvəl, tarixi prosesin və ictimai münasibətlərin subyekti kimi çıxış edir"* [6, s.152]. Şəxsiyyəti daha çox tarixi inkişafda götürən müəllif şəxsiyyət, cəmiyyət və zaman anlayışlarını vəhdətdə təsvir edərək bəzən şəxsiyyəti tarixi hadisədən daha çox ön plana çıxarır.

Hər bir yazıçı öz şəxsiyyət konsepsiyasını izləyir, tarixi şəxsiyyəti müxtəlif insan münasibətlərinin əhatəsində roman qəhrəmanına çevirir, onu hadisələrin mərkəz nöqtəsinə gətirərək bədii təxəyyülünün məhsulu olan obrazlarla, əlavə hadisə və xətlərlə zənginləşdirir. Müəllif tarixi şəxsiyyətin xarakterinin inkişafını, əvvəlcə ailə quruluşunu, sonra qəbilə və tayfa əlaqələrini və nəhayət, sərhədləri əvvəlcə öz ulusunu, sonra da bütün fəth edilmiş torpaqları əhatə edən dövlətdə yaratdığı sosial, ictimai münasibətləri "içəridən" izləyir.

Tarixi şəxsiyyətlərin siması müxtəlif tərəfdən səciyyələndirilən bədii xarakterdir. Şəxsiyyətin fəaliyyəti uzaq və yaxın tarixi keçmişin güzgüsü, dövrün sosial-mənəvi problemlərinin romanda bədii əksidir. Əsərdə tarixi janrın müəyyən bir spesifik xüsusiyyəti kimi başa düşülən, fakt və hadisələrin etibarlılığını, tarixi şəxsiyyətlərin xarakterini və hərəkətlərinin dəqiqliyini nəzərdə tutan tarixçilik konsepsiyası əhəmiyyətli dərəcədə özünü göstərir.

## Əsas hissə / *Main Part*

XX əsrin II yarısında müasir Azərbaycan ədəbiyyatında roman janrı həm də özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, eyni zamanda tarixi mövzuda qələmə alınan romanlar təsvir edilən dövr və şəxsiyyət haqqında geniş təsəvvürün yaranmasına xidmət etmişdir. *"Nəsrimizdə tarixi roman janrının forma və məzmunca yeni bir mərhələyə qədəm qoyması göz qabağında idi: Yazıçı əvvəllər olduğu kimi tarixin arxasınca yüyürmürdü, tarixi öz ardınca çəkib aparırdı"* [8, s.172].

1960-cı illər Azərbaycan ədəbi nəsrinin görkəmli nümayəndəsi F.Kərimzadənin yazdığı əsərlərdə Azərbaycan xalqının çoxəsrlik tarixi keçmişinə, milli dəyərlərimizə olan sevgisi və marağı öz əksini tapmış, çağdaş Azərbaycan nəsrində roman janrı onun qələmi ilə yenidən canlanmışdır. Yazıçı qələmə aldığı əsərlərdə mühüm hadisələri və Azərbaycanın tarixi həqiqətlərini özünəməxsus bədii dillə təsvir etmişdir. Ədibin nəsr əsərlərinin böyük əksəriyyətinin tarixi roman janrında olması ona Azərbaycan xalqının keşməkeşli tarixi keçmişini əsərlərində hərtərəfli təsvir etməyə imkan vermişdir. F.Kərimzadə mühüm hadisə və şəxsiyyətləri ədəbiyyata gətirmiş, onun imkanlarından yararlanaraq, "Təbriz namusu" kimi tarixi roman ortaya çıxarmışdır.

"Təbriz namusu" romanının başlıca ideyası orta əsrlər Elxanilər dövlətində ziddiyyətli və təzadlı tarixi-siyasi dövrdə daxili və xarici düşmənlərin təzyiqinə qarşı aparılan mübarizə, həmçinin fateh-hökmdar Çingiz xanın istilalarının ağır nəticələrinin əksidir. Tarixi romanda xəyanət, intiqam, əsarət və mübarizə motivləri izlənməkdədir. Forma aydınlığı, dil və üslub zənginliyi ilə seçilən "Təbriz namusu" romanında təsvir edilən hadisələr iki xətt üzrə öz əksini tapır. Zaman baxımından uzaq olsa da, bu hadisələr məzmun etibarilə bir-birilə uyğunluq içərisində, yazıçı məharəti sayəsində əlaqəli şəkildə nəql olunur. Yazıçı tarixi romanda Azərbaycanda orta əsr Hülakülər dövrünü, hökmdarların həyat və fəaliyyətinin mühüm tərəflərini əks etdirir. Böyük Monqol dövlətinin əsasını qoymuş sərkərdə Çingiz xan (1162-1227) romanda süjet xəttinin ən mərkəzi obrazlarından biri kimi tarixi həqiqətlərə uyğun biçimdə təsvir olunmuşdur.

XIII-XIV əsrlər Azərbaycan tarixinin mürəkkəb və ziddiyyətlərlə dolu dövrü olmaqla bərabər, monqol yürüşlərinin ictimai-siyasi hadisələrə dərindən təsir göstərən bir dönəmi olmuşdur. 1256-cı ildə Çingiz xanın nəvəsi Hülakü xan tərəfindən əsası qoyulan Hülakülər (Elxanilər) dövləti Azərbaycan da daxil olmaqla

çox geniş əraziləri öz təsiri altına almışdı. *"Hülakü dövləti Orta Asiyadan Aralıq dənizinə qədər, Dərbənddən İran körfəzinə qədər böyük bir ərazini əhatə edirdi"* [10, s.161]. Beşinci monqol ulusu Elxanilər dövləti bir əsr Azərbaycanda fəaliyyət göstərmiş, ictimai, siyasi, mədəni həyatda çox böyük dəyişikliklər baş vermişdir.

Yaxın və Orta Şərqdə geniş əraziləri əhatə edən Elxanilər dövlətində cərəyan edən tarixi hadisələr "Təbriz namusu" romanında öz bədii əksini tapmışdır. Yazıçı, kökləri Çingiz xandan gələn Qazan xan, Olcaytu Xudabəndə xan kimi Elxani hökmdarlarını göz önündə saxlayaraq Hülakülər dövlətinin ümumi mənzərəsini, əsasən, sonuncu hökmdar Sultan Əbu Səid Bahadur xanın hakimiyyəti dövrünün (1316-1335) timsalında təsvir etmiş, onun dövlət valiləri ilə münasibətlərini qələmə almışdır. XIV əsrdə Azərbaycanda baş vermiş hadisələri təsvir edərkən müəllif, təbii olaraq, tarixi mənbələr və faktlardan bəhrələnmişdir. Əsərdə tarixi mənbələrə əsaslanan hadisələr Hülakülər dövrünün ictimai-siyasi mənzərəsi haqqında geniş təsəvvür yaradır.

Romanda bədii təxəyyüllə canlandırılan hadisələr Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli bir dövrünün əksidir. XIII əsrin ortalarından Azərbaycanda möhkəmlənmiş monqol sülaləsi, daha dəqiq desək, Elxanilər dövləti 1357-ci ilədək hakimiyyətdə olmuşdur. Azərbaycan Elxanilər dövlətinin mərkəzi kimi bu zaman kəsimində baş verən bütün ictimai-siyasi və mədəni hadisələrin təsiri ilə xeyli dəyişikliklərə məruz qalmışdır. *"Hülakülər dövlətinin yaranması və yüz il müddətində fəaliyyət göstərməsi tədricən Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatına təsir etmiş, onun hüdudlarında, əhalisinin etnik tərkibində, dini görüşlərində, mədəniyyətində, dilində nəzərəçarpacaq dərəcədə dəyişikliklər baş vermişdir"* [2, s.19]. Romanda Hülakülər dövlətində cərəyan edən hadisələr tarixi şəxsiyyət Çingiz xanın hökmdarlıq dönəminin təsviri ilə növbəli şəkildə əks olunmuşdur.

F.Kərimzadə XIII əsrdə hakimiyyətə gəlmiş Elxanilər dövlətində baş verən hadisələr fonunda tarixi şəxsiyyətlərin parlaq obrazını yaratmış, bədii cizgilərlə xarakterik cəhətlərini ön plana çıxarmışdır. Romanda Elxanilərin hakimiyyəti dövrünün təsviri "Naxçıvanda qəsd" hissəsinin nəqli ilə başlayır. Yazıçı 1319-cu ildə Naxçıvanda baş verən hadisələrin timsalında ziddiyyətlərlə dolu tarixi dövrə işıq tutmuşdur. Elxanilər dövlətinin Əmir əl-ümərası, sarayda müxtəlif vəzifələr icra etmiş tarixi şəxsiyyət, sərkərdə Əmir Çoban obrazı romanda bir çox hadisələrin mərkəz fiqurlarından biri kimi təsvir olunmuşdur.

Əmir Çoban türk-monqol mənşəli Sulduz tayfasından gəldiyinə, fərasət və qoçaqlığına görə monqol sarayında vəzifə sahibi olmuşdur. Siyasi fəaliyyətinə Arqun xanın hakimiyyəti dövründə başlamış, Qazan xanın səfərlərində iştirak etmişdir. O, cəsarəti ilə seçilərək Sultan Məhəmməd Xudabəndə tərəfindən əmirlər əmiri vəzifəsinə təyin edilmişdir. *"Olcaytunun vəsiyyətinə görə, dövlət işlərinin idarəsi Sulduz qəbiləsindən olan baş əmir Çobana həvalə olundu. Əmir Çoban faktiki hökmrana çevrildi"* [9, s.87]. Azərbaycan torpaqlarına göz dikmiş Qızıl Orda hökmdarı Özbəkin Dərbəndi keçərək bu ərazilərə daxil olmaq niyyətindən xəbər tutan Əmir Çoban onun qoşunlarını məğlub etməyə müvəffəq olmuşdur. Əbu Səid Bahadur xanın hakimiyyəti dövründə Əmir Çoban böyük nüfuza malik olmuş, düşmən qüvvələrə qarşı qətiyyətlilik göstərmişdir. Elxanilərin hökmranlıq taxtına 12 yaşlı Əbu Səid çıxsa da, dövlətin bütün idarəçilik işləri Əmir Çobanın əlində cəmlənmişdir.

Əmir Çoban obrazını təəssübkeş, vətənin taleyinə qarşı biganə qalmayan bir tarixi şəxsiyyət kimi göstərən müəllif onu bütün baş verən daxili çəkişmələr və ziddiyyətlər içərisində düzgün qərarlar almağa meyilli bir sərkərdə kimi təsvir etmişdir. O, düşmən qarşısından qaçanları imtiyazlarından asılı olmayaraq bağışlamır, döyüşdən çəkindiklərinə görə bəyləri, əmirləri cəzalandırırdı. Əmir Çoban öz mənafeyi naminə hakimiyyətə qarşı çıxaraq xəyanət etməyi ağlından belə keçirmir, dəfələrlə dövlətin bütövlüyünü təhlükə altına salan qiyamçılara qarşı mübarizə aparır.

Əsərdə Əmir Çobanın el arasında "Xan Çoban" deyə çağırılmasına aydınlıq gətirilmişdir. *"Çünki monqol hökmdarlarının özləri də elə xan ləqəbi daşıyırdılar. - Hülakü xan, Arqun xan, Abaqa xan, Qazan xan"* [7, s.46]. Amma

fitnəkarlar bu ləqəbi məhz Əmir Çobanın özünə layiq bildiyi xəbərini yaymağa çalışmışdır. Əmir Çobanın gündən-günə artan nüfuzu, Elxanilər dövlətinin idarəsini ələ alması və oğlanlarını vilayət hakimləri təyin etdirməsi Əbu Səid Bahadur xanın hakimiyyətini təhlükə altına qoyurdu. Romanda təsvir olunan daxili çəkişmələr fonunda get-gedə çətinləşən siyasi vəziyyətin və Əbu Səid Bahadur xanla şəxsi münasibətlərin pisləşməsi zəminində Əmir Çobanın əleyhinə çıxan qüvvələrin sayı durmadan artırdı. Əmir Çobanın yaxşılığını heç vaxt əsirgəmədiyi əmirlər və bəylər öz mənafeyi naminə ondan üz döndərmiş, ona qarşı birləşərək sui-qəsd təşkil etməkdən çəkinməmişdir. Vəziyyət o həddə çatır ki, Əmir Çobanın güvəndiyi hər kəs ona xain çıxır və bu vaxtdan sonra əmirlər əmiri yalnız öz gücünə, qılıncına arxalanır. Romanda Əmir Çobana sona qədər sadiq qalan, onun dövlət üçün etdiklərini çox dərindən anlayan yeganə şəxs Ərdəbildə iqamət edən Şeyx Səfiyəddin olmuşdur. *"Altmış ildən çoxdur ki, Çingiz xan övladlarının tapdağı olduq. İndi-indi özümüzə gəlirik, içimizdə bir nəfər yetişib, ərsəyə çatıb, o, tayfalarımızın, vətənin dərdinə məlhəm ola bilər, onu da kökündən baltalayıb yıxmaq istəyirik"* [7, s.53-54]. Şeyx Səfiyəddin hökmdar Əbu Səidə aldandığını sübut edir və Çobanın nüfuzunun yenidən bərpasına müvəffəq olur. Əsərdə təsvir edildiyi kimi, Əmir Çobanın Əbu Səidin taxt-tacına göz dikdiyi xəbərlərinin tüğyan etdiyi bir zamanda hökmdar Herat hakimi Məlik Qiyasəddin Qurdun əli ilə onu öldürtdürür. *"20 yaşlı Əbu Səid Çobana qarşı mübarizəyə başladı. O, 1328-ci ildə Çobanı və onun oğullarından ikisini edam etdirdi"* [9, s.87].

Tarixi şəxsiyyət Əmir Çobanın bədii obrazı "Təbriz namusu" romanında hərtərəfli, siyasi fəaliyyəti və xarakterinin mühüm tərəfləri ilə təsvir olunmuşdur. Əmir Çoban insani dəyərlərə böyük qiymət vermiş, Qazan xanın vəziri, tarixçi Xoca Fəzlullah Rəşidəddinə dərin hörmət bəsləyərək saray ziddiyyətləri içərisində hər zaman onun tərəfini tutmuşdur. Əmir Çobanın böyük oğlu Teymurtaş dövlətə qarşı qiyam qaldıraraq, atasını çətin və çıxılmaz vəziyyətə salır. Əmir Çobanın bu ağır qərar astanasında keçirdiyi mənəvi iztirablar, oğlunun taleyinə qarşı biganə qala bilməməsi qəhrəmanın həssas daxili aləminin cizgilərini ortaya çıxarır. *"İndi ağzıqanlı ordu ilə onun üstünə gedib, ciyərparəsini məğlub etməli, ya sağ tutmalı, ya da öldürtməli, uzaq olsun, gözəl başını hökmdara ərmağan gətirməliydi! Aman, Allah!... Fikirləşdikcə, əmirin damarında qanı quruyur, gözlərinə qaranlıq çökürdü"* [7, s.126]. F.Kərimzadə romanda Əmir Çoban obrazını tarixi faktları göz önündə saxlayaraq həqiqətlərə uyğun biçimdə təsvir etmişdir. Əsərdə Əmir Çobanın keşməkeşli dövrə təsadüf edən siyasi fəaliyyətində göstərdiyi səriştə və cəsarəti, çətin vəziyyətlər astanasında verdiyi mühüm qərarları onu romanın mərkəz və yaddaqalan obrazına çevirmişdir.

Elxanilər dövləti Qazan xanın hakimiyyəti illərində öz dirçəliş dövrünü yaşasa da, onun ölümündən sonra hakimiyyətə gələn qardaşı Sultan Məhəmməd Ulcaytunun zamanında ziddiyyətli bir tarixi dövrə doğru irəliləyirdi. Romanda tarixi həqiqətə uyğun olaraq, Məhəmməd Ulcaytunun ölümündən sonra hakimiyyətə oğlu 12 yaşlı Əbu Səid gəlmişdir. Elxanilər dövlətinin IX hökmdarı Əbu Səid "bahadur" ləqəbini Sultaniyyədə Əmir Qurmuşla aparılan döyüşdə göstərdiyi şücaətə görə qazanmış və özündən əvvəlki səkkiz Elxani hökmdarından ləqəbinə görə seçilmişdir [9, s.87]. Əbu Səid Bahadur xanın hakimiyyətinin ilk illərindən etibarən dövlət işlərinin idarəsi ilə Əmir Çoban məşğul olmuşdur. Əbu Səid xanın yaşının az olmasından istifadə edən xarici qüvvələr dəfələrlə ona qarşı çıxaraq qiyam qaldırmış, Xorasan, Mazandaran kimi şəhərlər Çağatay əmiri Yasavur tərəfindən ələ keçirilmişdir.

"Təbriz namusu" romanında tarixi şəxsiyyət Əbu Səid Bahadur xanın hökmdar obrazı tarixlə vəhdət şəklində və yaddaqalan bədii cizgilərlə əks olunmuşdur. Əsərdə Əbu Səidin siyasi fəaliyyətə başladığı dönəmin ziddiyyətli, qarışıq və feodal ara çəkişmələrinin hökm sürdüyü bir dövrə təsadüf etdiyi görünməkdədir. Romanda Əbu Səid Bahadur xanla bağlı hissənin nəqli xanın Ərdəbilin ən nüfuzlu şeyxlərindən biri olan Şeyx Səfiyəddinlə görüşünün təsviri ilə başlayır. Romanın bu hissəsinə qədər isə Əbu Səidin təsviri onun ən yaxın əmirlərindən olan Əmir Çobanın dilindən belə ifadə olunmuşdur: *"Bir də ki, axı, hökmdar orta yaşda olar, ağı ağdan, qaranı qaradan seçər. Amma mənim bu*

*qohumum lap körpədir. Arvadım Düləndi Əbu-Səidin bacısıdır. Kim qabağa düşüb, nə deyirsə, ona da inanır”* [7, s.48-49]. Əmir Çoban Əbu Səidlə bağlı bu düşüncələrində yanılmamışdır. Əbu Səidin yaşının az olmasından istifadə edən monqol əmirləri arasında daxili çəkişmələr gün-gündən artır, narazı qüvvələrin sayı çoxalırdı. Hökmdarlıq mövqeyinə tam hakim ola bilməyən Əbu Səidin nüfuzu hələ də Əmir əl-üməra Çobanı üstələyə bilməmişdir.

Əsərin Əbu Səidlə Şeyx Səfiyəddinin görüşü hissəsində ortaya çıxan mətləblər xanın obrazının xəyanətkar və satqın qüvvələr qarşısında acizliyinin nümunəsidir. Əbu Səidin xarakterinin əsas cizgilərini ön plana çıxaran hissələrdən biri bu söhbət əsnasında dilə gətirdiyi düşüncələri olmuşdur. Şeyx Səfiyyəddin Əbu Səidin ətrafında baş verənləri müdrik bir dillə izah edərkən xan ona diqqətlə qulaq asır və Şeyxin fikirlərini aydınlaşdırmağa çalışır. Aldadıldığını və hakimiyyətinin nə qədər böyük təhlükə altında olduğunu dərk edən Əbu Səid xan peşmanlığını böyük təəssüf hissi ilə dilə gətirir. Siyasi fəaliyyətindəki təcrübəsizliyini və zəifliyini dərk edərək dərin minnətdarlıqla Şeyxi səltənətinin xilaskarı və özünün mürşidi hesab edir. Şeyx Səfiyəddinlə keçirdiyi görüşlərdə məlum olan mətləblər Əbu Səidin satqın əmirlərə qarşı tədbir görməsini və nüfuzunu qaldırmasını şərtləndirmişdir. *“O, hakimiyyəti möhkəmlətmək üçün böyük nüfuz sahibi olan Əmir Çobandan məharətlə istifadə edir. Sonradan Əmir Çobanın getdikcə ölkədə bütün hakimiyyəti ələ alacağından qorxub ona qarşı bəd niyyətlərini həyata keçirməyə çalışır”* [1, s.27]. Əbu Səid həm də çox yaxşı anlayır və etiraf edirdi ki, Əmir Çobanı heç kim əvəz edə bilməz və onu tək ümid yeri hesab etmək olar.

Əsərdə tarixçi Fəzlullah Rəşidəddinin və övladlarının edam səhnəsinin təsviri Əbu Səid obrazının daxili-mənəvi aləminin cizgiləri ilə yanaşı, onun xarakterinin mənfi tərəflərini və insani keyfiyyətlərini ortaya çıxarır. Elxanilər dövlətində fəaliyyət göstərən, Qazan xanın uzun illər baş vəziri olmuş F.Rəşidəddinin də aqibəti digər vəzirlərdən fərqlənməmiş, siyasi səbəblərdən faciəvi sonla bitmişdir. F.Rəşidəddin Ulcaytu xanı zəhərləyib öldürməkdə təqsirli bilinərək edamına fətva verilir. V.V.Bartoldun qeydlərində göstərilmişdir ki, monqol adətlərinə uyğun olaraq, hökmdarın ölümündən əvvəl ona son dərmanı vermiş şəxs onun ölümündə birbaşa təqsirkardır və bu sui-qəsd hesab olunur [5, s.555]. Edamdan əvvəl son sözlərində etdiyi yaxşılıqları dilə gətirən F.Rəşidəddinə qarşı hökmdar Əbu Səid Bahadur xanın cavabı çox qəddar və ədalətsiz olur. Xanın hökmü ilə vəzirin özündən əvvəl günahsız oğulları edam kürsüsünə qaldırılır. Bununla bərabər, daha sonralar Əbu Səid Bahadur xan yaddaşını təzələyir və öz səltənətinin varissiz qaldığı həqiqəti ilə barışa bilmirdi. F.Rəşidəddinə qarşı ədalətsiz və amansız hökmünün qarşılığında Tanrı tərəfindən cəzalandırıldığını düşünürdü: *“Bəlkə elə buna görə Allahın mənə qəzəbi tutub? Ədalətsiz olmuşam”* [7, s.100]. Gələcək zaman göstərmişdir ki, Əbu Səid xanın varisinin olmaması həm də Elxanilər dövlətinin süqutunu sürətləndirən səbəblərdən biri idi.

Romanda tarixi şəxsiyyət Əbu Səidin bədii obrazında həm də uzaqgörən siyasəti görülməkdədir. Sırf siyasi səbəblərə bağlı olaraq bacısı Sati bəyimi Əmir Çobana verərək öz hakimiyyət taxtının təhlükəsizliyini təmin edir. Sati bəyimin ağlına yaxşı bələd olan və Əmir Çobana lazımi qədər təsir göstərə biləcəyini yəqin edən Əbu Səid tərəddüd etmədən bu qərarını həyata keçirir. Əbu Səidin Əmir Çobanın qızı, ərli qadın olan Bağda xatunla izdivaca girmək istəyi isə qohumluq münasibətlərinin qəbuledilməz və dözülməz həddə çatmasına gətirib çıxarır. Əbu Səid bir Bağda xatunun xətrinə Əmir Çobanın bütün nəslini yer üzündən silməyə hazırdır və istəyinə bir hökmdar kimi nail olur: *“Gözəllər gözəli, əgər atan səninlə mənim qovuşmağıma razı olsaydı, onda bu qədər də günahlara batmazdım. Atan başa düşmədi ki, mən səni böyük bir məhəbbətlə sevirəm”* [7, s.250].

Tarixi romanın sonu təsirli biçimdə, “Sonuncu çarə” adlanan hissənin nəqli ilə başa çatır. 1335-ci ildə Elxanilər dövlətinin IX hökmdarı monqol xanı Əbu Səid Bahadur xan Bağda xatunun əlindən aldığı badəni içir və zəhərlənərək ölür. Romanda Əbu Səid Bahadur xanın ölümünün təsviri tarixi mənbələrdə də doğruluq payı olan mübahisəli məsələlərdən biri kimi qalmaqdadır. *“Digərlərinin rəyinə görə, Bağda xatun Əbu Səidi öldürməklə, əslində uzun müddət*

*hökmdara qarşı qəlbində gəzdirdiyi qisas niyyətini həyata keçirmiş olub"* [5, s.573]. Bir çox tarixi mənbələrdə isə Əbu Səid Bahadur xanın sırf siyasi səbəblərə bağlı olaraq öldürüldüyü göstərilməkdədir: *"1335-ci ildə Qızıl Orda xanı Özbək yenidən Azərbaycana soxuldu. Əbu Səid dövlətin əsas qüvvələrini Özbəyə qarşı mübarizəyə səfərbər etdi və özü də Kür çayının sahilinə gəldi. Lakin o, feodal ara çəkişmələri nəticəsində öldürüldü"* [3, s.352]. Əbu Səidin ölümü Elxanilər dövlətinin tənəzzülünü sürətləndirən başlıca amillərdən idi. Tarixi şəxsiyyət Əbu Səid Bahadur xanın bədii obrazı "Təbriz namusu" romanında hakimiyyətə gəldiyi dönəmdən etibarən vəfatına qədər olan zaman kəsimində, Elxanilər dövlətinin siyasi-ictimai mənzərəsi fonunda təsvir edilmişdir. Yazıçı romanda monqol xanı Əbu Səid Bahadur xanın tarixi obrazını yenidən canlandırmış, onun siyasi fəaliyyətini və insani keyfiyyətlərini qələmə almışdır.

## Nəticə / *Conclusion*

Fərman Kərimzadənin tarixi mövzuda qələmə aldığı "Təbriz namusu" romanında XIII-XIV əsrlərdə Azərbaycanda hakimiyyətdə olmuş monqol sülaləsinin Elxanilər dövlətinin ümumi ictimai-siyasi mənzərəsi öz əksini tapmışdır. Azərbaycanda hakimliyi ələ almış Elxanilər dövrü romanda tarixi mənbələrə əsaslanaraq təsvir edilmiş, zamanın ziddiyyət və çətinlikləri, qaranlıq səhifələri çoxobrazlı süjet fonunda kifayət qədər işıqlandırılmışdır. Əsərdə cərəyan edən hadisələrin bədii dillə təsviri Azərbaycanın Elxanilər dövründə tarixi mənzərəsinin öyrənilməsi baxımından diqqətəlayiqdir.

Romanda tarixi şəxsiyyətlərin dolğun və yaddaqalan obrazı tarixi həqiqətlərlə uyğunluq içində qələmə alınmışdır. Elxanilər dövlətinin IX hökmdarı Əbu Səid Bahadur xan və tarixi şəxsiyyət Əmir Çoban obrazı hərtərəfli şəkildə bədii boyalarla təsvir olunmuşdur. Tarixi şəxsiyyətlərin fəaliyyəti fonunda müəllif dövrün ziddiyyət və keşməkeşlərini, feodal ara mübarizələrini, hakimiyyətin sarsıntılı dönəmlərini təhlil edərək, orta əsrlər Azərbaycan tarixinə işıq tutmuşdur.

## Ədəbiyyat / *References*

1. Axundlu Y. Tarixi roman yeni mərhələdə. Bakı: Maarif, 1998.
2. Azərbaycan tarixi. Yeddi cilddə, III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007.
3. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrədək. Red. Z.B.Bünyadov, Y.B.Yusifov. Bakı: Çıraq, 2012.
4. Ədəbiyyatda şəxsiyyət konsepsiyası. Tərtibçi və red. A.Abdullazadə. Bakı: Elm, 2000.
5. Əmirov E. Orta əsrlər Azərbaycanının görkəmli dövlət xadimi Fəzlullah Rəşidəddin əl-Həmədani. Bakı: Şərq-Qərb, 2014.
6. Əsgərova N. Mütəfəkkirlər şəxsiyyət haqqında. Bakı: Azərnəşr, 1991.
7. Kərimzadə F. Təbriz namusu. Bakı: Kitab klubu, 2017.
8. Məmmədzadə Ə. Yaddaşın mühakiməsi. "Azərbaycan" jurnalı, 1994, № 1-3.
9. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim zamanlardan–XXI əsrin əvvəllərinədək). Bakı: Mütərcim, 2015.
10. Rəcəbli Q. Azərbaycan tarixi. Bakı: Elm və təhsil, 2013.
11. Salamoğlu T. Müasir Azərbaycan romanının poetikası. XX əsrin 80-ci illəri. Bakı: Elm, 2005.

# Концепция исторической личности в романе «Честь Тебриза»
***(На основе анализа образов правителя Эльханидов Султана Абу Саид Бахадур хана и Амира Чобана)***

**Ламия Насирова**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: nasiroff11@gmail.com

**Резюме.** Привлеченный к исследованию роман «Честь Тебриза» важен с точки зрения полного и всестороннего изучения художественного образа девятого правителя государства Эльханидов Абу Саид Бахадур хана и исторической личности Амира Чобана.

Цель исследования – анализировать важные аспекты художественного образа и характера исторических личностей в романе. Основным методом исследования является метод рассмотрения и сравнительного анализа.

Описание в романе периода правления Эльханидов начинается с повествования части «Покушение в Нахичеване». Художественный образ исторической личности Абу Саида Бахадур хана в романе «Честь Тебриза» отображён с момента его прихода к власти до самой смерти, на фоне политического и социального облика государства Эльханидов. Абу Саид хан получил прозвище «бахадур» за храбрость в битве с Амиром Курмушем в Султанийе.

В произведении возрождён исторический образ монгольского хана Абу Саид Бахадур хана, описана его политическая деятельность и человеческие качества. Правитель описывается в романе как одна из центральных фигур многих событий. Период, когда правитель начал свою политическую деятельность, совпадает с периодом конфликтных, смешанных и феодальных междоусобиц в династии Эльханидов. Различные события, описанные в романе, раскрывают слабость и раскаяние Абу Саида Бахадур хана перед лицом изменников и предательских сил. Монгольский правитель изображается как образ, сознающий свою неопытность и слабость в своей политической деятельности и осознающий, насколько велика угроза, которой подвергается его правительство.

Анализ образа Амира Чобана в романе, раскрывает особенности его внутреннего духовного мира, а также помимо человеческих качеств, положительные и отрицательные стороны его характера. Внутренние распри и политические давления в государстве Эльханидов время от времени наносили ущерб репутации Амира аль-Умара Чобана, сосредоточившего в своих руках все управленческие дела государства. В романе дается обобщенная характеристика индивидуальных черт образа Амира Чобана на фоне феодальных междоусобиц и противоречивых событий.

**Ключевые слова:** исторический роман, концепция личности, Эльханиды, Амир Чобан, Абу Саид Бахадур хан